2023 – Heydər Əliyev İli

# Ulu öndərin zəngin irsi milli dövlətçilik xəzinəsidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsini Azərbaycanın ən böyük ictimai birliyi olan, 17 min 430 həmkarlar ittifaqı təşkilatını və 1,6 milyondan çox müxtəlif peşə sahibini əhatə edən Azərbaycan Həmkarlar İttifaqlarının çoxsaylı kollektivləri də sevinc və məmnunluqla qarşılamışlar. Qurumun sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bu sənədin tarixi önəmi və "Heydər Əliyev İli"nin ictimai-siyasi həyatımıza gətirəcəyi ideya-məfkurəvi zənginlik barədə qəzetimizə açıqlamasında bildirdi:**

– Ümummilli liderin anadan olmasının 100-cü ilinin tamam olacağı 2023-cü ilin onun ən böyük yadigarı olan Azərbaycan dövlətində "Heydər Əliyev İli" elan edilməsi barədə Prezident sərəncamını hər bir həmkarlar ittifaqı üzvü dərin razılıqla qarşılayıb. Bu qərar müstəqil, suveren, demokratik dövlət quran, onu beynəlxalq səviyyəyə yüksəldən, söz sahibi edən, xalqının xoşbəxt həyatını təmin edən Heydər Əliyev fenomeninə xalqımızın məhəbbətini, onun xidmətlərinə olan qədirbilənliyi və zəngin irsinin layincə öyrənilməsinə olan tələbatı ifadə edir.

Prezident sərəncamında ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin müstəqil Azərbaycanın, dövlətçiliyimizin bugünkü tərəqqisində, ən əsası, qalib ölkə kimi beynəlxalq aləmdə tanınmasında rolu və xidmətləri böyük qədirbilənliklə ümumiləşdirmişdir. Ulu öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüzün önündədir. Bugünkü Azərbaycanın reallıqları Heydər Əliyev siyasətinin təntənəsidir.

2023-cü ilin, ümumilikdə, "Heydər Əliyev İli" elan edilməsi isə bu dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dərindən araşdırılmasına, bu günədək çap olunan elmi əsərlərin, kitabların sırasına yenilərinin əlavə olunmasına geniş imkanlar yaradacaq. Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqı və dövləti üçün qoyduğu irs çox zəngindir.

**Ümummilli lider Heydər Əliyevin zəngin ideya-mənəvi irsinin Azərbaycan xalqının milli sərvəti, xəzinəsi olduğunu vurğulayan Konfederasiya sədri daha sonra dedi:**

– Hələ bundan sonra neçə-neçə nəsillər bu irsdən, bu məktəbdən bəhrələnəcək, Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcək. Onun fəaliyyətinin hər bir mərhələsi – istər Azərbaycanda hakimiyyətinin birinci mərhələsi (1969–1982), istər Naxçıvan dövrü (1990–1993), istərsə də müstəqilliyimizin bərpasından sonrakı illəri ayrı-ayrılıqda çağdaş siyasi tariximizin parlaq və zəngin səhifələrini təşkil edir.

Ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə əzəmətli bir abidə ucaldıb. O abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir. Heydər Əliyev və Azərbaycan məfhumlarının birgə ifadə olunması xalqımızın qüdrətli oğlunun bənzərsiz həyatının və titanik fəaliyyətinin aydın mənzərəsini yaradır.

Vətənin xoş taleyini həyatının mənasına çevirmiş bu böyük azərbaycanlı rəhbərlik etdiyi xalqın bütün istəklərini layiqincə, böyük peşəkarlıqla, yoruldum demədən çalışaraq yerinə yetirdi. Ən əsası isə ulu öndərimiz bütün bu işləri böyük şövqlə, xalqını, dövlətini sevərək edirdi. Bu yolda heç bir təzyiqdən, təxribatdan çəkinməyərək, bütün əngəlləri və maneələri mahir ustalıqla aşaraq, böyük hədəflərə doğru şərəfli bir mübarizə yolu keçdi, öyünclü bir tarix yaratdı.

Dönüb 1993-cü ilin Azərbaycanına bir nəzər yetirək: hakimiyyət böhranı, ölkədə xaos və anarxiya, vətəndaş müharibəsi, parçalanma təhlükəsi, sosial-iqtisadi vəziyyətin ağırlığı və xalqın son dərəcə ağır psixoloji durumu... Bir sözlə, dövlətin məhv olması üçün hər şey ortada idi. Yüksək intellektə, parlaq zəkaya, peşəkar idarəçilik keyfiyyətlərinə sahib Heydər Əliyev xalqdan aldığı sarsılmaz dəstəklə xilaskarlıq missiyasını uğurla yekunlaşdırdı. Bu çətin, keşməkeşli, həm də şərəfli missiyanı vicdan və ləyaqətlə icra etməyi bacaran Heydər Əliyev qədirbilən xalqının inamını və sevgisini qazanmaqla ümummilli lider zirvəsini fəth etdi.

1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkilərində xalq öz liderinə heç bir tərəddüd etmədən, şəxsiyyətinə böyük inam və etimadla səsini verdi. O, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, güclü iqtisadiyyatı olan, müstəqil xarici siyasətə sahib, demokratik əsaslarla qüdrətli bir dövlət qurdu. Bu gün uğurlarından qürur duyduğumuz qüdrətli Azərbaycanı. Heydər Əliyev ilk gündən demokratiya yolu tutdu. Vətəndaşların daxili azadlığını, sərbəstliyini, mənəvi ucalığını ulu öndər ali dəyər hesab edirdi. O, bu torpaq, Vətən üçün, xalq üçün doğulmuşdu, Azərbaycanın tərəqqisi, azadlığı, müstəqilliyi naminə usanmadan çalışdı. Məhz bu səbəblərdəndir ki, xalqın öz dahi oğluna sevgisi sonsuz və əbədidir.

**2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsinin ulu öndərin xalq və dövlət qarşısında misilsiz xidmətlərinə verilən ali dəyərin təzahürü olduğunu söyləyən Milli Məclisin deputatı açıqlamasının sonunda söylədi:**

– Bu qərar həm də ölməz rəhbərin şəxsiyyətinə, müqəddəs xatirəsinə sonsuz sevgi-sayğıları qədərincə ifadə etmək və bütün dünyaya çatdırmaq üçün yaradılan geniş imkandır. AHİK-də birləşən bütün təşkilatların üzvləri buna görə Prezident İlham Əliyevə ümumi minnətdarlıqlarını ifadə edirlər. Bizim müqəddəs borcumuzdur ki, Heydər Əliyev ideyalarını hər zaman qoruyub saxlayaq, onun zəngin və qiymətli irsini növbəti nəsillərə ötürək. Bu irs bizim milli sərvətimizdir.

**Hazırladı: Tahir RÜSTƏMOV, "Xalq qəzeti"**